http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 07 (1604) 15 aprel 2015 - ci il Qiyməti 40 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib.

Dövlət başçısı nitqində əhalinin sağlamlığının təmin olunması və səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətindəki inkişafa da toxunub:

*«...Bu sahə daim diqqət mərkəzindədir və bizim düşünülmüş iqtisadi islahatlarımız bütün dövrlərdə güclü sosial siyasətlə də tamamlanırdı. Bu il bütün sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün əlavə vəsait ayrılır, məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir. Hazırda 20-dən çox tibb müəssisəsi tikilir və təmir edilir, əhalinin diaqnostikası məsələləri öz həllini tapır, müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə təqribən artıq 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçmişdir. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılmışdır. Yəni, indi müayinədən keçmək üçün Bakıya gəlməyə ehtiyac yoxdur. Hər bir yerdə müasir tibb ocaqları var ki, insanlara gözəl xidmət göstərməlidir...»*



## BU SAYIMIZDA

Alman professor Karsten Perka "ATU-nun fəxri qonağı" oldu 2



Tibb Universitetində beynəlxalq elmi konfrans keçirilib 2

Faşizm üzərində qələbədə Azərbaycan tibb işçilərinin rolu 2

Mənəvi yüksəkliyə xidmət göstərən missiya haqqında dəyərli mənbə 3

Nuru Bayramov: «Hazırda ölkəmizdə cərrahiyyəni laparoskopiyasız təsəvvür etmək mümkün deyil» 4



Kardiologiya Akademiyasının ilk toplantısı 5

# Tibb Universitetində beynəlxalq elmi konfrans keçirilib

## Əhliman Əmirasanov: "Bərpa müalicəsi yetərincə vacib sahədir"

**◆Aprelin 10-da Azərbaycan Tibb Universitetində "Dayaq-hərəkət sistemi xəstəliklərinin cərrahi və bərpa yolu ilə müasir müalicəsi" mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb.**



Konfransın açılış mərasimində Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov çıxış edərək konfransın mövzusu və əhəmiyyəti haqqında tədbir iştirakçılarına məlumat verib: "Bəllidir ki, istər cərrahi xəstəliklər olsun, istər digər xəstəliklərin müalicəsində daha uğurlu nəticə əldə etmək üçün sonrakı mərhələdə aparılan bərpa müalicəsinin böyük önəmi var".



Rektor ölkəmizdə reabilitasiya, yeni bərpa müalicəsi sahəsində yüksək ixtisaslı mütəxəssislərə xüsusi ehtiyac olduğunu qeyd etmişdir. Ə.Əmiraslanovun sözlərinə görə, məhz bu baxımdan bərpa müalicəsi sahəsində təcrübə mübadiləsinə böyük ehtiyac var. Həmin istiqamətdə artıq Azərbaycan Tibb Universiteti Türkiyənin "Romatem" şirkəti ilə qarşılıqlı əməkdaşlığa başlayıb: "Bu qurumun rəhbəri Köksal bəy Holoğlu yalnız Türkiyədə deyil, ümumiyyətlə dünyada tanınmış bir insan, mütəxəssisdir. Onun başçılıq etdiyi onlarla klinika var. Odur ki, onların köməyindən istifadə edərək mütəxəssislərimizin fikir mübadiləsi aparmasına imkan yaratmaq məqsədilə belə bir konfransın keçirilməsinə qərar verdik".

Konfransda türkiyəli mütəxəssis, ROMATEM Fizioterapiya və Reabilitasiya Xəstəxanasının İdarə Heyətinin müdiri, Uz.Dr.Köksal Hološlu "Fizioterapiya və reabilitasiya sahəsində gündəlik problemlər" mövzusunda çıxış edib. O, belə bir görüşün təşkili üçün ATU-nun rektoru Əhliman Əmiraslanova və digər həmkarlarına təşəkkürünü bildirdi.

Daha sonra professor Sabir Etibarlının sədrliyi ilə sessiyalar işə başlayıb. Tədbirdə Prof.Dr. Azadlıq Yılmaz "Onurğa problemləri və müasir müalicə üsulları: Onurğa xəstəlikləri, ortopediya və protez tətbiqləri və skaliozun konservativ müalicəsi haqqında məlumatla çıxış edib. Dr. Cəmil İsgəndərov isə "Boyun fəqərəarası disk yırtıqlarının cərrahi və konservativ müalicəsi" mövzusunda müasir tendensiyalardan söz açıblar.

Konfransın fasilədən sonrakı hissəsində azərbaycanlı və türkiyəli professorlar "Beyin və ömürlük zədələrdə müasir reabilitasiya prinsipləri", "Artroplastik cərrahi və reabilitasiya müalicəsi", "Ortopedik reabilitasiya prinsipləri", "Miofassial diskfunksiyalarda " TYOFLEX"-in rolu" kimi mövzulardan məruzələr səsləndiriblər. Tədbir iştirakçıların suallarının ekspertlər tərəfindən cavablandırılması ilə yekunlaşıb.

# Alman professor Karsten Perka "ATU-nun fəxri qonağı" oldu

**Almaniyanın Şarite Universitet Klinikasının Sümük-əzələ Cərrahlığı Mərkəzinin direktoru, professor Karsten Perka Azərbaycan Tibb Universitetinin qonağı olub.**



Universitetin Tədris Cərrahiyyə Klinikasında baş tutan görüş zamanı rektor, akademik Əhliman Əmiraslanov qeyd etdi ki, professor Perka, Almaniyanın Ortopediya və Travmatologiya sahəsi üzrə tanınmış mütəxəssisidir: "Professor Perkanın ortopediyada əsas maraq sahəsi böyüklərdə bərpaedici əməliyyatlar, xüsusilə bud və diz oynaqları üzərində aparılan rekonstruktiv prosedurlardır. O, Azərbaycanla sıx əlaqədə çalışan bir mütəxəssisdir. Professor bir sıra xəstələr üzərində mürəkkəb cərrahiyyə əməliyyatlarını uğurla həyata keçirib".

Əhliman Əmiraslanov ATU-nun Berlinin Şarite Klinikası ilə əməkdaşlıq etdiyini, birgə layihələr haqqında sazişlərin olduğunu vurğuladı: "Bizim Şarite Klinikası ilə bir çox sahədə əməkdaşlıq haqqında müqaviləmiz var, vaxtaşırı olaraq həmin klinikaya öz mütəxəssislərimizi göndəririk. Artıq klinikanın ortopediya və travmatologiya bölməsi ilə də belə bir əlaqələr qurmaq üçün imkan yaranıb. Bu gün belə qərara gəlmişik ki, ATU-nun gənc mütəxəssislərini, xüsusilə də rezidentləri 3-6 ay müddətinə Şarite Klinikasında praktikaya göndərək".

Sonra Əhliman Əmiraslanov ATU-nun Elmi Şurasının qərarına əsasən professor Karsten Perkanın "Tibb Universitetinin fəxri qonağı" yüksək adına layiq görüldüyünü elan etdi. Rektor qonağa "Fəxri qonaq"diplomunu və xatirə hədiyyəsini təqdim etdi.

Görüş zamanı professor Karsten Perka ATU haqqında öz təəssüratlarını bölüşüb. O, Tibb Universitetinin nəzdindəki Klinikaların işi ilə tanış olduğunu, bu müəssisələrin yüksək səviyyəli tibbi xidmət göstərdiyini bildirib.

Daha sonra professor K.Perka sümük-əzələ cərrahlığı haqqında məruzəsi ilə çıxış edib. O, bud və diz oynaqlarının total artroplastikasına həsr olunmuş elmi araşdırmalarının nəticələrindən danışıb. Professor öz araşdırmalarında istifadə olunan yeni cərrahi texnikalar, prosedur və yanaşmaların klinik praktikada tətbiqindən də söz açıb. Sonda professor görüş iştirakçılarının və rezidentlərin suallarını cavablandırıb.

Qeyd edək ki, professor Karsten Perka Berlində yerləşən Şarite Universitet Klinikasının Sümük-əzələ Cərrahlığı Mərkəzinin direktoru və həmin mərkəzin Ortopediya kafedrasının müdiridir. O, həmçinin Şimali Almaniya Ortopedik Assosiasiyasının Baş Katibi və Almaniya Artroplastika Cəmiyyətinin növbəti müddət üçün seçilmiş Prezidentidir.

**ATU-nun mətbuat xidməti**




**◆ Mayın 9-da Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 70-ci ildönümüdür. Bu qələbənin qazanılmasında xüsusi rolu olan Azərbaycanda da həmin tarix dövlət səviyyəsində qeyd olunacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli Sərəncamı ilə "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı" təsdiq edilib.**

# Faşizm üzərində qələbədə Azərbaycan tibb işçilərinin rolu

Həmin sənəd çərçivəsində bu gün Azərbaycan Tibb Universitetində "1941-1945-ci illər müharibəsində qələbənin əldə edilməsində Azərbaycan tibb işçilərinin müstəsna rolu" mövzusunda elmi konfrans baş tutub. Konfransda ikinci cahan savaşının tarixi, həmin müharibədə azərbaycanlıların, xüsusilə də tibb işçilərinin rolundan söz açılıb. İkinci dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr kimi dəyərləndirilib. Qeyd olunub ki, Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqları açıqlamaq ciddi elmi-nəzəri, siyasi və əməli əhəmiyyətə malikdir. Tədbirdə xüsusi vurğulanıb ki, Böyük Vətən müharibəsi zamanı Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, canlı qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edilib. Həmin illərdə Azərbaycanda Sovet Ordusu sıralarına 640 min nəfərədək səfərbər edilərək cəbhəyə göndərilib. Onlar da sabiq SSRİ məkanında yaşayan digər xalqların nümayəndələri ilə çiyin-çiyinə faşizmə qarşı savaşda iştirak ediblər.



Universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev çıxış edərək II Dünya Müharibəsini XX əsrin ən fəlakətli müharibəsi adlandıraraq dünyanın 4/5-nü ağuşuna aldığını, 61 ölkəni əhatə etdiyini, nəticədə 67 milyon insanın həyatını itirdiyini xatırladıb. Həlak olanlardan 27 milyonunun əsir düşərgələrində, 20 milyonunun isə dinc əhali olduğunu bildirən prorektor faşizm üzərində qələbədə xalqımızın yaxından iştirakını və Bakı neftinin müstəsna rolunu da vurğulayıb. Müharibə zamanı motorlu texnikanın 85-90 faizinin Bakı nefti ilə təmin olunduğunu, göstərdikləri qəhrəmanlıq və rəşadətə görə 121 azərbaycanlıya Sovet İttifaqı Qəhrəmanı adı verildiyini bildirib. Faşizm üzərində qələbədə yaxından iştirak edən xalqımızın torpaqlarımızın müdafiəsi üçün hazırda ermənilərlə üz-üzə dayandığına da diqqət çəkib.

Digər natiqlər də çıxışları zamanı müharibənin törətdiyi dağıntılardan, fəlakətlərdən, itkilərdən danışıblar.

III cərrahi xəstəliklər kafedrasının müdiri, ə.e.x., professor Məmməd Nəsirov "1941-1945-ci illər müharibəsində qələbənin əldə edilməsində Azərbaycan cərrahlarının rolu" mövzusunda çıxış edərək azərbaycanlı cərrahların əvəzsiz xidmətlərindən, arxa cəbhə kimi Azərbaycanda yaradılan hospitallar, xəstələrin necə qəbulu və müalicəsindən söhbət açıb.

İctimai fənlər kafedrasının dosenti Elbrus Sadıqov "1941-1945-ci illərdə Azərbaycan xalqının sosial potensialı cəbhənin xidmətində " mövzusunda çıxış edərək xalqımızın qələbədə yaxından iştirakı ilə bağlı geniş məlumat verib.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi Fuad Məmmədov da "Azərbaycan tibb işçiləri 1941-1945-ci illər müharibəsində" mövzusunda etdiyi çıxışında həkimlərimizin fədakarlığını xüsusi qabardıb.

Uşaq və yeniyetmələr, əmək gigiyenası kafedrasının dosenti Rəhim Orucov müharibə dövründə arxa cəbhədə şahidi olduğu ağır vəziyyətdən, qələbə naminə hər kəsin hansı əzab-əziyyətlərə qatlaşaraq ön cəbhəyə ərzaq və geyim göndərmələrindən söhbət açıb.

Qeyd edək ki, Prezidentin sərəncamı ilə təsdiqlənən Tədbirlər Planına əsasən, ölkəmizin təhsil müəssisələrində müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulub. Onlar arasında müharibəyə həsr edilmiş əsərlərin, kitabların sərgisinin təşkili, savaş iştirakçıları ilə görüşlərin keçirilməsi planlaşdırılır. O cümlədən, 1941-1945-ci illər müharibəsinə həsr olunmuş vahid dərsin (günün) keçirilməsi, müharibə veteranları və tələbələr arasında görüşlərin keçirilməsi, gənclərin xatirə komplekslərinə ziyarətinin təşkili nəzərdə tutulur. Eyni zamanda, Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyi MDB-yə üzv ölkələrin Başçılarının Şurasının tapşırığı ilə qələbənin 70-ci ildönümünün qeyd olunması məqsədi ilə hazırlıq işləri həyata keçirir. Bu tədbirlər çərçivəsində azərbaycanlı təhsil işçiləri Moskvada təşkil olunacaq beynəlxalq məktəbin işində iştirak edəcəklər.

**QABİL**

# Mənəvi yüksəkliyə xidmət göstərən missiya haqqında dəyərli mənbə

**◆ Bu günlərdə "MTR-qrup" nəşriyyatında Arif Qabiloğlunun sayca üçüncü hesab olunan "Böyük ürək sahibi" kitabı nəfis tərtibatda işıq üzü görüb. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabın rəyçisi Milli Məclisin deputatı Fəttah Heydərov, redaktoru isə Tahir Heydərovdur.**

Kitabda Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Respublikası Olimpiya Komitəsinin vitse-prezidenti, YUNESCO və İSESCO–nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın keçdiyi nümunəvi həyat yolundan və çoxşaxəli xeyrxah fəaliyyətindən bəhs edilir. Topluda Mehriban xanım Əliyevanın ölkəmizdə təhsilin, səhiyyənin inkişafında və maddi-mədəni irsin qorunub şaxlanılmasında göstərdiyi müstəsna xidmətləri öz əksini tapıb. Kitabda Heydər Əliyev Fondunun həyata keçirdiyi əsaslı qlobal layihələrdən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasındakı əvəzsiz rolundan, müstəqil respublikamızı dünyaya tanıtdırmaqda apardığı xeyriyyəçilik aksiyalarından, yüksək vətənpərvərlik, humanistlik və mərhəmətlik missiyasını layiqincə yerinə yetirməsindən ətraflı söhbət açılır.

Qeyd olunur ki, Heydər Əliyev Fondu yarandığı vaxtdan ölkəmizin mədəniyyəti və tarixinin təbliği, əhalinin sağlamlığının mühafizəsi, ekoloji mühitin sağlamlaşdırılması, informasiya texnologiyalarının tətbiqi, sosial problemlərin həlli ilə əlaqədar bir sıra genişmiqyaslı layihələr həyata keçirir. Fond yarandığı ilk gündən cəmiyyətimizin ən zəif təbəqələrinə böyük diqqət və qayğı ilə yanaşır. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat", "Yeniləşən Azərbaycana yeni məktəblər", "Uşaq evi və internat məktəblərinin inkişafı" kimi proqramları qısa zamanda həyata keçirmiş və nəticədə minlərlə köməksiz insana yardım göstərmiş, kimsəsiz uşaqlara qayğı artırılmış, mühüm sosial problemlər öz həllini tapmışdır.

Müəllif dünyanın nüfuzlu nəşrləri tərəfindən Mehriban xanım Əliyevanın nəcib və xeyirxah əməllərinin humanizm prinsiplərinə söykəndiyinin yüksək qiymətləndirildiyini vurğulayır: "Bu günlərdə Almaniyada nüfuzlu "Hanseatie Lichthouse" nəşriyyatında Berlində fəaliyyət göstərən Siyasət və İctimaiyyət Beynəlxalq İnstitutunun direktoru xanım Kerstin Pievenin müəllifliyi ilə "Qadın liderliyi – Qadınların gücü . Dünyanın ən uğurlu qadınlarından öyrənək" adlı kitab nəşr olunmuşdur. Kitabda dünyanın 30 ölkəsindən 60-a yaxın ən uğurlu, nüfuzlu və tanınmış qadının məqaləsi və ya verdiyi müsahibələr dərc olunmuşdur. Nəşrdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Respublikası Olimpiya Komitəsinin vitse-prezidenti, YUNESCO və İSESCO–nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın müsahibəsi dərc olunmuşdur. Kitabın nəşrində məqsəd şəxsi və ictimai fəaliyyətlərində uğurlar qazanmış qadınların əldə etdikləri nailiyyətlərin sirlərini öyrənmək, eləcə də onların ictimai fəaliyyətlə bağlı dəyərli məsləhətlərini işıqlandırmaqdan ibarətdir. Nəşrdə Mehriban xanım Əliyeva ilə birlikdə Almaniya Federativ Respublikasının federal kansleri Anjela Merkel, ABŞ- ın dövlət katibi Hillari Klinton, YUNESCO-nun baş direktoru İrina Bokova və digər şəxslərin müsahibələri və onlar haqqında yazılan məqalələr dərc olunmuşdur.




Mehriban xanım Əliyevanın müsahibəsində rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm layihələr, Azərbaycan qadınlarının ölkəmizin ictimai- siyasi və mədəni həyatında rolu, Azərbaycanın dünyada qadınlara seçki hüququ verən ilk ölkələrdən biri olması və digər mövzularla bağlı məsələlər barədə geniş məlumat verilmişdir."

Kitabda Heydər Əliyev Fondunun prioritet istiqamətləri, həyata keçirdiyi sosial, mədəni-kütləvi tədbirlər və eləcə də fondun dəstəyi ilə milli mədəni irsimizin qorunub saxlanması, ədəbiyyatımızın, incəsənətimizin, musiqimizin xaricdə təbliğ olunması ölkəmizin müsbət imicinin möhkəmlənməsi fonunda göstərilir. Müəllif Azərbaycan xalqının rifahı naminə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fondun beynəlxalq miqyaslı layihələrdəki iştirakını qeyd edərək fondun dəstəyi ilə dünyanın bir sıra ölkələrində ümumbəşəri tarixi mədəniyyət abidələrinin bərpa olunması haqqında da ətraflı məlumat verir.

Heydər Əliyev Fondunun unikal fəaliyyətindən bəhs olunan kitabda Dağlıq Qarabağ münaqişəsinin reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasındakı rolu xüsusi qeyd edilir. Kitabda vurğulanır ki, həyata keçirilmiş layihələr arasında Ermənistanın Azərbaycana qarşı təcavüz tarixini əks etdirən "Qarabağ reallıqları", bukletlər toplusu, erməni vəhşiliyindən bəhs edən "Müharibə və mədəni- tariximiz abidələrimiz", "Azərbaycana qarşı müharibə: mədəni irs hədəf altında" yazılmış kitablar bir neçə dildə nəşr edilmiş, dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımına həsr olunmuş aksiyalar, foto və videosərgilər təşkil edilmişdir.

Müəllif əsərində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın geniş xeyriyyəçilik fəaliyyətindən, bəhs edərkən onun başəriyyətin ali ideallarına xidməti sahəsindəki nailiyyətlərinin dünyanın bir sıra beynəlxalq mükafatları və ordenlərinə layiq görüldüyünü xronoloji ardıcıllıqla diqqətə çatdırır:

"Mehriban xanım Əliyevanın mükafatları arasında Rusiyanın "Yüzilliyin mesenatları", Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, BMT-nın Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, "Qızıl ürək" beynəlxalq mükafatı, Fransanın "Şərəf Legionu" ordeninin zabit dərəcəsi, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaç ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Küveyt dövlətinin Fəxri diplomu və bir çox başqa təltiflər var. Bu yaxınlarda Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Mehriban xanımı "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə "ordeni ilə təltif edib"...

Bundan başqa Mehriban xanım Əliyevanın xarici ölkələrə işgüzar səfərləri, beynəlxalq konfrans və konqreslərdə etdiyi proqram xarakterli çıxışlar, o cümlədən dünyanın görkəmli elm- mədəniyyət və ictimai-siyasi xadimləri ilə keçirdiyi səmərəli görüşlər və fotolar kitabda təfsilatı ilə öz əksini tapmışdır.

Həmçinin, kitaba Mehriban xanım Əliyevanın mənəvi yüksəlişimizə xidmət edən nəcib əməlləri, hamıya örnək olan şərəfli həyat yolu barədə ölkəmizin tanınmış elm-mədəniyyət və dövlət adamlarının məqalələri də daxil edilmişdir. Onların arasında Azərbaycan Tibb Universitetinin xarici tələbələrlə iş üzrə dekanı, professor Gülər Seyidovanın "Mənəvi yüksəkliyə xidmət göstərən missiya" başlıqlı məqaləsi də dərc olunmuşdur.

Həmin məqalədən bəzi məqamları oxucularımızın da nəzərinə çatdırırıq:

..."Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin dövlətin inkişafı, qüdrətlənməsi naminə həyata keçirdiyi çoxşaxəli siyasətə töhfəsini verən Heydər Əliyev Fondu da Azərbaycan xalqının milli mədəniyyətinin, milli-mənəvi dəyərlər sisteminin qorunmasında, habelə cəmiyyətdə saflıq, nəciblik, xeyirxahlıq kimi dəyərlərin təbliğində müstəsna xidmətlərə malikdir. Fond yarandığı gündən ulu öndərin mərhəmət, nəciblik, və yüksək humanizmə əsaslanan ali ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışır, millətin gələcəyi naminə bir sıra strateji əhəmiyyətli layihələri inamla həyata keçirir, ümummilli liderin xeyirxah və nəcib əməllərini yaşadır. Ölkə vətəndaşlarının zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verir.

Həyat amalı insanlara təmənnasız xidmətdən ibarət olan, xeyirxahlıq, humanizm kimi dəyərlərə tapınan Heydər Əliyev Fondunun prezidenti, YUNESCO və İSESCO– nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da son illərdəki əzmkar fəaliyyəti ilə məhz belə bir mənəvi ucalığa yüksəlmiş, cəmiyyətdə böyük nüfuz və hörmət qazanmışdır. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri özündə birləşdirən ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və düyğuların ictimai şüurda möhkəmlənməsidir. Heydər Əliyev Fondunun prezidenti haqlı olaraq qloballaşmanın qarşısıalınmaz prosesə çevrildiyi, informasiya–kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir. Qarşıya qoyduğu bu kimi nəcib məqsədlərlə cəmiyyətin mənəvi yüksəlişinə, saflaşmasına çalışan Mehriban xanım Əliyeva nəinki respublika hüdudlarında, eləcə də beynəlxalq miqyasda böyük nüfuz və etimad qazanmışdır. ..

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qrumun xəttilə həyata keçirilən tədbirləri dəyərləndirərək demişdir: "Heydər Əliyev Fondu milli fonddur. Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır. Eyni zamanda, Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi- Azərbaycanın olduğu kimi dünyada təqdim edilməsi- bütün bu şərəfli funksiyalar fondun üzərinə düşübdür. Düşübdür deyəndə, fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görür, mən bunu da deməliyəm. Ona görə mən fondun fəaliyyətini çox təqdir edirəm, çox bəyənirəm və şübhə yoxdur ki, bundan sonra da Azərbaycanın gələcək inkişafında fondun rolu böyük olacaqdır."

Fond qarşıya qoyduğu məqsədlərin miqyasına, əhatə dairəsinə və mahiyyətinə görə analoqu olmayan qurum kimi tanınır. Şübhəsiz Azərbaycanın birinci xanımının yüksək mənəvi aləmindən, nəcibliyindən, insanpərvərliyindən irəli gələn bu fəaliyyət bütövlükdə cəmiyyətdə xoş ovqatın, nəcib duyğuların, xeyriyyəçilik meyllərinin güclənməsinə səbəb olur. Dünyanın xilası naminə çalışan yüksək amalı insanlarla eyni sırada dayanan YUNESCO və İSESCO– nun xoşməramlı səfiri qeyd edir ki, xeyriyyəçilik cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir: "Axı çətin məqamda başqalarından dəstək almış insan özü də imkan daxilində başqalarına kömək göstərməyə daha çox meyl edəcəkdir. Beləliklə, cəmiyyətimizdə " xeyirxah işlər dairəsi", qarşılıqlı kömək və dəstək sistemi yaranır ki, bu da son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhval-ruhiyyəsinə müsbət təsir göstərir".

Azərbaycanın birinci xanımı bu həssas məqama özünəməxsus yanaşma tərzi ilə diqqət ayırır və cəmiyyətdə xeyriyyəçiliyin gerçək rolunun aydın dərkinə ehtiyac olduğunu bildirir."

*M.ƏLƏKBƏRLİ*

**Müsahibə**

**Ölkədə yeni fəaliyyət göstərən klinikaların qurulmasında danılmaz xidmətləri olub tibb elmləri doktoru, professor Nuru Bayramovun. Bu sıradan Mərkəzi Klinik Xəstəxananın, Gömrük Hospitalının və başqalarının adlarını çəkmək olar. Hazırda ATU-nun Cərrahiyyə Klinikasında çalışır. Adıçəkilən kilinikanın quruculuq işlərində də əməyini əsirgəmir. 2012-ci ildən isə Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının müdiridir. 2014-cü ildən AMEA-nın müxbir üzvü seçilib. AMEA Tibb üzrə Problem Şurasının sədri, Ali Atestasiya Komissiyasının Rəyasət Heyətinin üzvüdür. Türkiyənin bir sıra nüfuzlu xəstəxanalarında təcrübə keçərək, tibbi təhsilini davam etdirib. 1991-ci ildə Moskvada "Xroniki osteomielitlərin kompleks müalicəsində kombinəolunmuş lazerlərin tətbiqi" mövzusunda dissertasiya işini müdafiə edərək tibb elmləri namizədi, 1999-cu ildə isə "Qaraciyər rezeksiyalarından sonrakı ağırlaşmaların proqnozlaşdırılması və profilaktikası" mövzusunda dissertasiya işini müdafiə edərək tibb elmləri doktoru dərəcəsini alıb. Bir sıra kitabların, elmi məqalələrin, dərs və dərs vəsaitlərinin, metodik göstərişlərin müəllifidir.**



# Nuru Bayramov: «Hazırda ölkəmizdə cərrahiyyəni laparoskopiyasız təsəvvür etmək mümkün deyil»

**İlk söhbətimiz kafedraya rəhbərlik edəndən sonra görülən işlərdən və yeniliklərdən oldu:**

*- Əsasən bir neçə istiqamətdə fəaliyyətimizi genişləndirir və inkişaf etdiririk. Praktik işimizdə əsas istiqamətlərimizdən biri laparoskopik cərrahiyyənin inkişaf etdirilməsidir. Mən 2000-ci ildə Türkiyədən Azərbaycana dönən ərəfədə yalnız bir klinikada – Xəzər Dəniz Hövzə Xəstəxanasında laparoskapiya vardı. Sonra 2 klinikada təşkil etdik. Hazırda ölkəmizdə cərrahiyyəni laparoskopiyasız təsəvvür etmək mümkün deyil. Xəstəxanaların əksəriyyətində laparoskopiyadan istifadə olunur. Bu sahə xeyli inkişaf edib.*



*İkinci istiqamətimiz qaraciyər və böyrək transplantasiyası məsələsidir. Doğrudur, Mərkəzi Klinik Xəstəxanada transplantasiya məsələsini həyata keçirə bilmədik. Amma Gömrük Hospitalında buna nail ola bildik. Çalışırıq ki, Cərrahiyyə Klinikasında da bunu həyata keçirək. Bu, mütləq olacaq və buna görə akademik Əhliman Əmiraslanovun, klinika rəhbərliyinin dəstəyi ilə ciddi hazırlıq işləri gedir.*

*Üçüncü istiqamət isə proktologiya sahəsidir. Bilirsiniz ki, kafedranın əvvəlki müdiri rəhmətlik professor Həsən Sultanov respublikamızda və kənarda da proktologiya sahəsi üzrə tanınmış alimlərimizdən olub. Onun hazırda çox gözəl məktəbi və kafedramızda davamçıları var ki, onlar bu gün failiyyətlərini davam etdirirlər. Bu sahənin də inkişaf etdirilməsi üçün yeni müalicə, cərrahi əməliyyat, müayinə üsulları tətbiq edirik. Həm də lakoroskopikin proktologiyaya tətbiqi ilə əlaqədar irəliləyiş var. Bu sahənin inkişafı üçün xarici mütəxəssislərin imkanlarından da istifadə olunur. Almaniyada böyük bir klinikanın baş həkimi Dr. Nevzat Doğanın və adını çəkmədiyim digər mütəxəssislərin təcrübəsindən yararlanmağımız bu sahənin inkişafına ciddi təkan verir. Məqsədimiz proktologiya sahəsini inkişaf etdirərək dünya standartları səviyyəsinə çatdırmaqdır.*

*Dördüncü istiqamətimiz piylənməsi olan xəstələrin müalicəsi ilə əlaqədardır. Bu sahədə müəyyən işlərə başlanıb və bir çox əməliyyatlar edilibdir. Bu sahəni həm elmi, həm də praktiki nöqteyi nəzərdən inkişaf etdirmək istəyirik.*

*Beşinci sahə endokrin cərrahiyyəsidir. Bu sahə üzrə də kafedramızda mütəxəssislər var və onlar bu sahə ilə uzun müddətdir tanış olurlar.*

*6-cı sahə qaraciyər yağlanması və sirrozudur. Bu sahələrdə işlər rahat gedir, problemimiz azdır, inkişaf nəzərə çarpır.*

*Adını çəkdiyim sahələrin inkişaf etdirilməsi hörmətli rektorumuzun nəzarəti altında uğurla həyata keçirilir.*

**- Tədrisdə yeniliklər, dərslərin mənimsənilməsi, praktik vərdişlərə yiyələnmənin səviyyəsi ilə bağlı fikirlərinizi də bilmək istərdik.**

*- Son üç il müddətində bu sahədə xeyli iş görülübdür. İlk növbədə IV-VI kursların tədris proqramı və konsepsiyası dəyişdirildi. Bu addımı atmağımıza səbəb bir tərəfdən Boloniya sisteminə keçməyimizlə əlaqədar idisə, digər tərəfdən proqramın sovet dövründən qalması idi. Təbabət xeyli inkişaf etmişdi. Ancaq IV-VI kurslarda proqramlar köhnə, bir-birinin təkrarı idi. Bu təkrarçılıq aradan qaldırıldı. Avropa və Şərq ölkələrinin qabaqcıl təcrübələri öyrənilərək universitetimizdə tətbiq olundu. Proqramın əsas konsepsiyası tələbələrə bacarıqları öyrətməkdir. Tələbələrə ilk öncə düzgün diaqnoz qoymağı öyrətməyə çalışırıq. Bunun üçün şəraitimiz də var. Tələbələrin bir qismi auditoriyada öyrənir, bir qismi isə bacarıq laboratoriyasının imkanlarından istifadə edirlər.*

*Rezidentlərimizə də nəzəri və praktiki vərdişləri öyrədirik. Kafedramızda vaxtaşırı seminarlar və kurslar təşkil olunur. Elə bu günlərdə Dr.Nevzat Doğan və Dr. Rüfət Məhərrəmovun iştirakı və Cərrahi Klinika rəhbərliyinin dəstəyi ilə "Təməl cərrahi bacarıqlar" kursunu təşkil etdik. 10 rezidentimiz təməl və lakoroskopik cərrahiyyə kursu keçərək bacarıqları öyrəndilər. Cərrahi bacarıqları bilməyənlərin əməliyyat otağına girməyə icazələri olmadığı üçün onlar imtahan verərək sertifikat aldılar. Bundan sonra rezidentlərimiz əməliyyat otaqlarına girə biləcəklər. Doğrudur, tədrisimizin səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsi ilə eyni olmasa da, bu istiqamətdə imkan daxilində addımlarımızı atırıq.*

**- Bəs metodik göstəriş, əyani vəsaitlərlə bağlı nə deyərdiniz?**

*- Köhnə metodik göstərişlər bizi qane etmir. Yeni metodik göstərişlər hazırlanıb və hazırlanmaqda da davam edir. Kafedramızda xüsusi bir qrup müasir metodik göstərişlərin, qaydalar və protokolların hazırlanması ilə məşğuldur. Görülən işlər qrup tərəfindən vaxtaşırı müzakirə olunur.*

*Universitetimizə Hollandiyadan dəvət olunmuş Krauz adlı bir professor var idi. O da bu sahədə bizə xeyli kömək etdi. Bizə il ərzində müasir protokolların seminarını verdi. İndi o protokolların Azərbaycan variantını hazırlayırıq və yaxın vaxtlarda təqdim edəcəyik. İstiqamətlərimizdən biri də elə budur.*

**- AMEA–nın müxbir üzvü seçilmisiniz. Bəzən elə olur ki, müxbir üzv seçiləndən sonra alimlərimizin elmi işlərini davam etdirməsində bir səngimə olur. Sizdə necə, elmi araşdırmalarınız davam edirmi?**

*- Təbii ki, kafedramızın qaraciyər üzrə elmi-tədqiqat və elmi-praktik sahəsi üzrə işləri davam edir. AMEA-nın müxbir üzvü seçilməyim bu məsuliyyəti ikiqat atrırıb. Dünyada kök hüceyrələri üzrə tədiqat işləri aparılır və sürətli inkişaf gedir. Biz də bu sahədən kənarda qalmaq istəmirik. Bir neçə ay əvvəl Bakı Beynəlxalq Forumunda və AMEA-da rektorumuz Akademik Ə.Əmiraslanov tərəfindən Respublikamızda kök hüceyrələri üzrə elmi tədqiqat işləri aparmaq üçün məsələ qaldırdı və bu sahədə hazırlıq işləri davam etməkdədir.*

**- Siz eyni zamanda "Türkdilli xalqların qastreontoloji terminlər lüğəti" kitabının da həmmüəllifisiniz. Necə oldu ki, siz belə bir kitaba həmmüəllif olmaq fikrinə düşdünüz?**

*- O kitabın ideya müəllifi və redaktoru özüm olmuşam. Türkdilli xalqların tibb sahəsi üzrə mütəxəssislərinin əməkdaşlıq zamanı terminlərlə bağlı çətinliklə üzləşdiyinin şahidi oldum. Bundan dolayı belə bir kitabın zəruriliyi ideyası fikrimdən keçdi. Bu ideya 1997-ci ildə gerçəkləşdi. Bu kitab türk xalqlarının tibbi terminologiyasına dair sanballı bir kitabdır. Hesab edirəm ki, bu lüğət kitabı ortaq türk dilinin yaranmasında az da olsa, töhfəsini verəcək. Bu sahəni bir daha gündəmə gətirmək fikrimiz var.*

**- Siz adətən çətin və qeyri-standart əməliyyatlar edirsiniz. Elə hallar olubmu ki, əməliyyat olunacağı təqdirdə pasiyentinin həyatına təhlükə hiss edərək əməliyyatdan imtina edəsiniz?**

*- Hesab edirəm ki, xəstəsini müalicə edə bilməməsi, xəstəlik qarşısında aciz qalmas, həkim üçün ən ağır cəzadır. Əlbəttə, xəstəni həyata qaytarmaq üçün bir faiz ümid olubsa, əlimdən gələni etmişəm. Təəssüf ki, xəstə qarşısında aciz qaldığımız anlar da olub. Onda da həmin cəzanın hansı dərəcədə ağırlığını cismən və ruhən yaşamış, necə çəkdiyimi özüm bilmişəm.*

**Qabil ABDULLAYEV**

# 7 aprel – Ümumdünya Sağlamlıq Günüdür

**◆ Həmin gün 1948-ci ildə Dünya Səhiyyə Təşkilatının yaradıldığı gün - hər il aprelin 7-də qeyd olunur. Dünya Sağlamlıq Gününün qeyd edilməsi 1950-ci ildən ənənəyə çevrilib. Həmin tarixi andan dünyanın 200-ə yaxın dövləti DST-nin üzvü olub.**




Dünya Sağlamlıq Günü münasibətilə tədbirlər insanların sağlamlığın çox böyük əhəmiyyət daşıdığını başa düşməsi üçün keçirilir. Dünya Sağlamlıq Günü hər il dünya səhiyyəsi qarşısında duran qlobal problemlərə həsr olunur və "Çoxlarının həyatının xilası sənin qanının təhlükəsizliyindədir", "Fəallıq uzunömürlülüyə aparan yoldur", "Hamiləlik həyatda xüsusi hadisədir. Onu təhlükəsiz edək", "Sağlamlığımızı iqlim dəyişmələrindən qoruyaq" və s. kimi müxtəlif devizlər altında keçirilir.

2015-ci ildə Dünya Sağlamlıq Gününün mövzusu "Qida məhsullarının təhlükəsizliyi"dir. DST-nin məlumatına görə, hər il təqribən 2 milyon insanın ölümü (dəhşətlisi budur ki, əsas etibarilə uşaqların ölümü) təhlükəli qida məhsulları ilə bağlıdır. Qidanın tərkibində olan patogen bakteriyalar, viruslar, parazitlər və ya təhlükəli maddələr ishaldan tutmuş xərçəngə qədər 200-dən çox xəstəliyin səbəbidir. Qida məhsullarının təhlükəsizliyinə daim yeni təhlükələr yaranır. Kifayət qədər yaxşı bişirilməyən heyvan mənşəli məhsulları, nəcislə çirklənmiş meyvə və tərəvəzi, tərkibində dəniz biotoksinləri olan molyuskları təhlükəli məhsullara nümunə göstərmək olar. Odur ki, bu il "Fermadan boşqaba qədər - qida məhsullarını təhlükəsiz edək!" devizi ilə keçirilən Dünya Sağlamlıq Günü müxtəlif hökumət sektorlarında işləyənlərin, fermerlərin, istehsalçıların, pərakəndə satış müəssisələri işçilərinin, tibb işçilərinin, habelə istehlakçıların diqqətini qida məhsullarının təhlükəsizliyinin əhəmiyyətinə və hər bir insanın boşqabındakı məhsulların təhlükəsiz olduğuna əminlik hiss etməsi üçün hər kəsin nə kimi rol oynaya biləcəyinə cəlb etmək imkanı verir.

Azərbaycan ilə DST arasında əməkdaşlıq uğurla inkişaf edir və bu da səhiyyə sahəsində keçirilən islahatlar baxımından əhəmiyyətlidir. DST-nin Avropa Regional Komitəsinin sessiyasının 2011-ci ilin sentyabrında ölkəmizdə keçirilməsi bunu təsdiq edir. Bundan əlavə, ölkəmizdə əhalinin sağlamlığının təmin olunması və səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində konkret tədbirlər görülür.

Son 10 ildə səhiyyəyə ayrılan büdcə vəsaiti 10 dəfədən çox artıb. Bu müddət ərzində əksəriyyəti respublikanın regionlarında yerləşən 500-dən çox tibb müəssisəsi inşa edilib və əsaslı təmir olunub, bütün müəssisələr müasir tibb avadanlığı və texnika ilə təmin olunub. Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü ilin iyununda "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Əhalinin ümumi dispanserləşdirilməsi səhiyyə sistemində məcburi qaydaya çevrilir. Yoluxucu xəstəliklərə qarşı mübarizə sahəsində əhəmiyyətli nəticələr əldə olunub. Bu sahə praktiki səhiyyənin prioritet istiqaməti kimi daim diqqət mərkəzindədir. Ana və uşaq ölümünün səviyyəsi bir neçə dəfə azalıb.

# Kardiologiya Akademiyasının ilk toplantısı

**Aprelin 4-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Ürək Mərkəzinin təşəbbüsü ilə yaradılan ATUKA- nın (Azərbaycan Tibb Universiteti Kardiologiya Akademiyası) ilk elmi tədbiri keçirilib.**






Yenicə təsis olunan Kardiologiya Akademiyasının ilk toplantısını açan Tədris Terapevtik Klinikanın direktoru, ə.e.x, professor Surxay Musayev bildirdi ki, bu akademiya klinikada çalışan gənc kardioloqların təşəbbüsü ilə yaradılıb. Məqsəd gələcəkdə kardiologiya elminin yaşlı nümayəndələrini və bu sahədə kifayət qədər tanınmış mütəxəssisləri bura dəvət etmək, onların təcrübəsini müzakirə etməkdən ibarətdir. Ona görə də bu akademiyanı bir elmi müzakirə klubu da adlandırmaq olar. Sözünə davam edən S. Musayev son illər Azərbaycanda kardiologiyanın inkişafına böyük diqqət yetirildiyini və tibbin bu sahəsinin ölkəmizdə sürətlə inkişaf etdiyini vurğulayaraq dedi ki, 20 il bundan qabaq respublikamızda açıq ürək əməliyyatı və yaxud stendləmə işi haqında təsəvvür belə yox idi. İndi nəinki paytaxtımızda, habelə regionlarımızın bir çox şəhərlərində bu əməliyyatlar asanlıqla həyata keçirilir. 2013-cü ilin dekabrında klinikamızda Ürək Damar Mərkəzi yaradıldığını diqqətə çatdıran klinika direktorunun sözlərinə görə, mərkəzin poliklinika və stasionar şöbəsində müalicə və müayinə işləri yüksək səviyyədə təşkil olunub. Ən qısa bir müddətdə bu mərkəzdə böyük işlər görülüb, nə qədər ağır xəstə əməliyyatlar olunaraq şəfa tapıb. Çıxışında hörmətli rektorumuz, akademik Əhliman Əmiraslanovla mərkəzin işini daha yüksək səviyyədə qurmaq üçün məsləhətləşmələr aparıldığını və müəyyən avadanlıqların yeniləri ilə əvəz olunacağını bildirən professor S.Musayev ilk addımları atan Kardiologiya Akademiyasına gələcək işlərində uğurlar dilədi.

Sonra Ürək Damar Mərkəzinin rəhbəri Fərid Əliyev, invaziv kardioloqlar Elnur İsayev və Fuad Səmədovun *“Müalicəyə rezistent ürək çatışmazlığını birlikdə müzakirə edəkmi?”* adı altında *“Müalicəyə rezistent ürək çatışmazlığı nədir?” “Müalicəyə rezistent ürək çatışmazlığına necə yanaşmalıyam?”* mövzularında çıxış etdilər.

Kardiologiya sahəsi üzrə aparıcı mütəxəssislərin də iştirak etdiyi toplantı açıq diskussiya şəraitində keçdi. Tədbirin sonunda müzakirəyə çıxarılan mövzunun suallarını düzgün cavablandıranlar ATUKA-nın idarə heyəti tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırıldılar.

**MƏNSUR**

# Türkiyəli alim farmakologiya kafedrasında mühazirə oxudu

**Gündən –günə inkişaf edən müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artdıqca, respublikamızın ali təhsil ocaqlarının da xarici ölkə universitetləri ilə əlaqələri genişlənir. Belə ki, xarici ölkələrin mütəxəssisləri bizim universitetlərlə əməkdaşlıq etməyə maraq göstərirlər.**

Aprelin 8- də Türkiyə Cümhuriyyətinin Ordu Universitetinin tibb fakültəsinin tibbi farmakoloji kafedrasının professoru Dr. Celalettin Semih Kunak ATU-nun farmakologiya kafedrasında müəllim və tələbələr qarşısında mühazirə oxumuşdur.

Toplantını giriş nitqi ilə açan farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev bildirdi ki, artıq universitetimiz dünyanın bir çox ali təhsil ocaqları ilə yaxından əməkdaşlıq edir, müəllim və tələbə mübadiləsi həyata keçirir. Tanınmş alimlər universitetimizə gəlir, müxtəlif mövzularda mühazirələr oxuyurlar. Bu ölkələr arasında Türkiyə universitetləri ən önəmli yer tutur. Ulu öndər Heydər Əliyevin “ Bir millət- iki dövlət” anlamını xatırladan M. Qəniyev türkiyəli alimə məlumat verdi ki, “ Mövlanə dəyişim” proqramı əsasında ölkələrimiz arasında sürətli yaxınlaşma prosesi baş verib. Bütün sahələrdə olduğu kimi elm, təhsil sahəsində də səmərəli əməkdaşlıq edilmişdir. O, qeyd etmişdir ki, son illər ATU-nun rektoru, akademik Əhliman Əmiraslanovun gərgin zəhməti və şəxsi nüfuzu sayəsində univrsitetimizin maddi- texniki bazası gücləndirilib, beynəlxalq əlaqələri genişlənərək hazırkı yüksək səviyyəyə çatdırılıb.





Hörmətli qonağı toplantı iştirakçılarına təqdim edən M.Qəniyev dedi ki, əslən Kırım türkü olan Celalettin Semih Kunakın ölkəmizə ilk səfəridir. O, Tibbin bu sahəsi üzrə kifayət qədər tanınıb.

Sonra professor Celalettin Semih Kunak “Dərmanların təkmilləşdirilməsi”, “Dərmanların orqanizmdə innoaktivləşmə prosesinə məruz qalması” mövzularında çıxış etmişdir. Alimin farmakologiya elminin müasir perspektvlərinə dair slaydlar və video görüntülər vasitəsilə müşayiət olunan mühazirəsi mütəxəssislər və tələbələr tərəfindən böyük maraqla qarşılanmışdır.

Mühazirələrini üç gün davam etdirən professor Celalettin Semih Kunak dinləyicilərin çoxsaylı suallarını da cavablandırmışdır.

***M.ABBASOĞLU***

**Fotolar Cənnətalı Çingizindir**



# ATU-da Harvard Universiteti ilə birlikdə simpozium keçirilib

## Əhliman Əmiraslanov: "Dünyanın bir çox universitetləri ilə əməkdaşlığımız var"

**◆ Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında "Qlobal psixi sağlamlıq və inkişaf xəstəlikləri" mövzusunda beynəlxalq simpozium keçirilib. Tədbir ATU-nun Psixiatriya kafedrası və Harvard Universitetinin Boston Uşaq Xəstəxanasının inkişaf xəstəlikləri departamenti ilə birlikdə təşkil olunub. Simpoziumda ABŞ, Türkiyə, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdən mütəxəssislər iştirak ediblər.**

Simpoziumun açılış mərasimində çıxış edən ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov psixi sağlamlıq və inkişaf xəstəliklərinin hazırda bütün dünya ictimaiyyətini narahat edən məsələlərdən biri olduğunu bildirib: "Müasir dünyada psixi sağlamlıq və onun qorunması ciddi əhəmiyyət kəsb edir. Bu səpkidə Azərbaycan Tibb Universiteti bir çox dünya universitetləri ilə elmi və praktiki əməkdaşlıq edir. Məhz bu əməkdaşlığın nəticəsi olaraq bu gün Harvard Universiteti Boston Uşaq Xəstəxanasının İnkişaf xəstəlikləri departamenti ilə birgə təşkil etdiyimiz elmi simpoziumun açılış mərasiminə toplaşmışıq". Rektor Ə.Əmiraslanovun sözlərinə görə, simpoziumun məqsədi Azərbaycanla qarşılıqlı təcrübənin paylaşılması ilə yanaşı, ölkədə gənc tədqiqatçı və alimlərin yetişdirilməsinə də kömək etməkdir. Rektor bu məsələdə Harvard Universiteti Boston Uşaq Xəstəxanasının İnkişaf Xəstəlikləri Departamentinin aparıcı mütəxəssislərindən biri Dr. Kərim Munirin böyük köməyi olduğunu vurğulayıb: "Biz əməkdaşlığımıza iki il əvvəl başlamışıq. Dr. Kerim Munir Türkiyə ilə yanaşı, Azərbaycan, Qazaxstan və Qırğızıstanda gənc alimlərin yetişdirilməsi istiqamətində səylə çalışmaqdadır". Rektor qeyd edib ki, Tibb Universiteti ilə Boston Uşaq Xəstəxanası arasında əməkdaşlıq çərçivəsində artıq ATU-nun iki həkimi orada praktika keçib və bu simpozium qarşılıqlı əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək.

Daha sonra ATU-nun Psixiatriya kafedrasının müdiri, Azərbaycanın Baş Psixiatrı, professor Gəray Gəraybəyli, Azərbaycan Psixiatrlar Assosiasiyasının rəhbəri professor Nadir İsmayılov və qeyri-yoluxucu xəstəliklər üzrə Qlobal Əqli Sağlamlıq Proqramının direktoru Kərim Munirin giriş nitqindən sonra simpozium öz işinə başlayıb.



Dünyanın müxtəlif ölkələrindən gələn mütəxəssislər tərəfindən aşağıdakı mövzularda məruzələr səsləndirilib: "Diaqnostik və statistik təlimat üzrə baxışın keçirilməsi", "5 psixi pozğunluq və qeyri-yoluxucu xəstəliklər", "Həyat boyu müşahidə olunan diqqət çatışmazlığı və hiperaktivlik sindromu" (Özgür Önər, Ankara Universitetinin Tibb fakültəsi), "Həyat boyu müşahidə olunan psixiotik pozğunluqlar" (Dr. Bora Başkak, Ankara Universiteti Tibb Fakultəsi", "Həyat boyu müşahidə olunan epilepsiya tutmaları" (Sara Spence, Harvard Tibb universiteti), "Həyat boyu müşahidə olunan autizm spektri pozğunluqları" (Dr. Tuncay Ergene, Hacettepe Universiteti).

ATU-nun təmsilçisi Nigar Sədiyeva isə "Azərbaycanda uşaqların normal inkişafı üzrə perspektivlər" mövzusunda çıxış edib. Həmçinin, "Sinir sisteminin inkişafı xəstəliklərinin diaqnostikasına yanaşma", "Autizm spektri xəstəlikləri üzrə genetika və genomika", "Genetika və genomika üzrə tədris vəsaitləri" (Fedik Rəhimov, Harvard Tibb Universiteti), "Əqli pozğunluqlar üzrə ictimai qayğı" (Qordon Harper, Harvard Tibb Universiteti) kimi məruzələr dinlənilib.

Simpoziumda inkişaf xəstəlikləri ilə yanaşı, digər psixi və nevroloji pozuntular, inkişaf xəstəliklərinin genetik aspektləri, müdaxilə və müalicə metodikaları ilə bağlı fikir mübadiləsi aparılıb. Toplantıda psixiatr, nevroloq, pediatr, psixoloq-defektoloq və inkişaf pozuntuları ilə mübarizə aparan mütəxəssislər iştirak ediblər. Sonda simpozium iştirakçılarına sertifikatlar təqdim olunub.

**Günel ASLANOVA**

# Rezidentlərin laparoskopik bacarıqları artırılır

**◆ Azərbaycan Tibb Universitetinin Cərrahiyyə Klinikasında rezidentlərin bilik və bacarıqlarını dərinləşdirmək məqsədilə silsilə kurslar keçirilir. Klinikada növbəti "Laparoskopik cərrahi bacarıqlar" kursuna start verilib.**



ATU-nun I cərrahi xəstəliklər kafedrasının müdiri Nuru Bayramovdan aldığımız məlumata görə, kursların məqsədi gənc cərrahlara, rezidentlərimizə təməl cərrahi bacarıqları öyrətməkdən ibarətdir: "Bundan əvvəl klinikamızda canlı laparoskopik kurslar baş tutub. Bu dəfə isə təməl laparoskopik bacarıqların öyrədilməsi prosesinə başlamışıq.





İki gün davam edəcək kursların iştirakçıları həm elektron simulyatorda dərs keçəcək, həm də canlı əməliyyatlara qatılacaqlar".

N.Bayramov qeyd edir ki, kurslarda ATU-nun 10 rezidenti iştirak edir. Kursun sonunda onlar Tədris Cərrahiyyə Klinikası tərəfindən sertifikatla mükafatlandırılacaqlar. Bu sertifikat rezidentlərə əməliyyatlarda iştirak etmək hüququ qazandırır.

Kafedra müdirinin sözlərinə görə, kursun təşkilində həm universitet rəhbərliyinin, həm də Cərrahiyyə Klinikasının böyük rolu olub. Kurslara rəhbərlik işinə Cərrahiyyə Klinikasının əməkdaşları ilə yanaşı, Almaniyanın Münster Universitetinin Euregi Klinikasının baş həkimi Nevzat Doğan da qatılıb. ATU tərəfdən I cərrahi xəstəliklər kafedrasının əməkdaşları, treninq mərkəzinin rəhbəri Qorxmaz Əhmədov kursların keçirilməsində birbaşa iştirak ediblər.

Gələcəkdə laparoskopik bacarıqlar kursları davam etdiriləcək və bu təlimlər ATU-nun çoxsaylı rezidentlərini əhatə edəcək.

# Tibb Universitetinin Tədris Terapevtik Klinikasında müasir Peyvənd otağı yaradılıb

**◆ Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında peyvənd otağı yaradılıb. Burada xəstələrə "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" qanunda nəzərdə tutulan zəruri peyvəndlər edilir. Onlar arasında Hepatit B, vərəm, poliomielit, göyöskürək, tetanus və digərləri var.**

Milli Peyvənd təqvimindəki siyahıdan əlavə, Klinikada həmçinin həkimin məsləhəti ilə aşağıdakı xəstəliklərə qarşı da peyvəndlər etdirmək mümkündür: insan papilloması virusu, suçiçəyi, hepatit A, meninqokokk infeksiyası və qrip.





Peyvənd otağı ATU-nun Tədris Terapevtik Klinikasının ikinci mərtəbəsində yerləşir. Bu mərkəz peyvəndin aparılması üçün zəruri olan avadanlıqlarla təchiz edilib: peyvəndlərin saxlanılması üçün soyuducu, şok əleyhinə yardım vasitələri, tibbi ləvazimatlar, bakterisid lampa mövcuddur. Bu kabinet peyvənd olunan uşaqların özünü yaxşı hiss etməsi üçün oyuncaqlar, uşaq mebeli, müasir tibbi taxtla təchiz olunub, daha körpələr üçün isə bələk masası qoyulub. Qeyd edək ki, ATU-nun Tədris Terapevtik Klinikasında vurulan peyvəndlər əsasən Böyük Britaniyanın GlaxoSmith Kline dərman şirkətindən alınır. Peyvəndin vurulması vaksinoprofilaktika sağlamlığı üzrə hazırlıq keçmiş tibb personalı tərəfindən həyata keçirilir.

Peyvənd otağında xüsusi maarifləndirici kitabçalar da var. Bu kabinet gündə 2 dəfə dezinfeksiyaedici vasitələrlə təmizlənir.

Sonda onu da qeyd edək ki, peyvənd vurdurmaq üçün gərək vətəndaşın sağlamlıq vəziyyəti haqqında həkimin yazılı rəyi olsun. Burada həmin şəxsin müvafiq peyvənd olunmağa qarşı əks-göstərişin olmadığı qeyd edilməlidir. Peyvənd yalnız bu rəy əsasında vurula bilər.

**ATU-nun mətbuat xidməti**

# FAKÜLTƏ TƏLƏBƏ ELMİ CƏMİYYƏTLƏRİNİN KONFRANSLARINDA

**◆ Stomatologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin 42-ci konfransı olub. Kliniki və xarici dillər bölməsindən ibarət konfrans ənənəvi olaraq ATU-nun Stomatoloji Klinikasında və xarici dillər kafedrasında keçirilib.**



Konfransı fakültə Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Ə.Hacıyev açaraq tələbələrimizin beynəlxalq tələbə elmi cəmiyyətlərinin konfranslarında layiqli yerlər tutduqlarını vurğulayıb. O, universitet rəhbərliyinin tədqiqatçı tələbələrə daim xüsusi qayğı göstərdiyini bildirərək bu sahədə ilk addımlarını atan gələcəyin elmi tədqiqatçılarına fakültənin dekanı, təşkilat komitəsinin sədri, professor Zöhrab Qarayevin və münsiflər heyətinin adından uğurlar arzulayıb.

Kliniki bölmədə dinlənilən 11 məruzədə stomatologiyanın aktual problemlərinə toxunulub. Texniki imkanlardan yararlanan gənc tədqiqatçılar kliniki materiallarını, gördükləri işləri əyani surətdə kompyuter görüntüləri ilə nümayiş etdiriblər.

Münsiflər heyətinin rəyinə əsasən Arzu Əhmədova, Tural Əliyev, Vaqif Məmmədov və Nigar Cabbarova dolğun çıxışları ilə fərqlənərək ilk yerləri tutublar.

Xarici dillər bölməsinin konfransında da fakültə rəhbərliyi tərəfindən TEC-in fəaliyyətinə böyük diqqət ayrıldığını deyən Ə.Hacıyev bu işin xarici dillər kafedrasında yaxşı qurulduğunu diqqətə çatdırıb. O, xüsusilə dosent D.Sultanova və baş müəllim N.Şərifovanın daha çox sayda elmi işə rəhbərlik etməsini, eləcə də tələbələri elmi işə həvəsləndirərək onlardan öz köməkliklərini əsirgəməyən Z.Hüseynova, V.Abıyeva, A.Səfixanova və professor T.Xəlilovanın timsalında müəllimlərin əməyini yüksək qiymətləndirib.

Kafedra TEC-nin sədri, dosent Rəna Hüseynova Azərbaycan Tibb Universiteti xətti ilə tələbə elmi konfranslarında yaxından iştirak etdiklərini və bu konfransa tələbələr hazırladıqlarını söyləyib. O, ümumilikdə 34, o cümlədən ingilis dilində 30, fransız dilində 1, rus dilində isə 3 məruzənin dinləniləcəyini, ən dolğun və maraqlı məruzələrlə çıxış edən tələbələrin konfransın 2-ci turunda iştirak etmək hüququ qazanacaqlarını qeyd edib.



Sonra təbabətin ayrı-ayrı sahələrinə aid maraqlı məruzələr dinlənilib. Məruzəçi tələbələrdən Kamran Nağızadə, Cəmil Muradov və Suqra Əzimova ilk yerlərə layiq görülüblər.

Hər iki bölmədə fərqlənən tələbələrin məruzələrini gənc həkimlərin və tələbələrin Beynəlxalq Tibb Konqresinə təqdim etmək tövsiyə olunub.

**A.KAMRANOĞLU**



**◆Aprelin 9-də əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**

Konfransda giriş nitqi ilə çıxış edən dosent Nərgiz Məmmədova qeyd edib ki, təhsil sahəsində fərqlənən tələbələrin elmi tədqiqat işlərinə cəlb olunması çox önəmlidir:



"Çünki ali təhsil müəssisələri tələbələrə təhsil verməklə yanaşı, onların elmə marağını artırmalı, alimlərin hazırlanması istiqamətində də fəaliyyət göstərməlidir. Bu baxımdan, Tibb Universiteti rəhbərliyi Tələbə Elmi Cəmiyyətlərinin fəaliyyətinə çox böyük əhəmiyyət verir. Ötən il rektor Əhliman Əmiraslanovun təşəbbüsü ilə ilk dəfə olaraq TEC-in beynəlxalq konfransı keçirilib".

N.Məmmədova qeyd edib ki, bu ilin sonunda da TEC-in növbəti beynəlxalq toplantısının təşkil olunacağı gözlənilir. O, tələbələri daha fəal olmağa, araşdırmalarını ortaya çıxarmağa çağırıb.

Daha sonra əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanov çıxış edərək TEC-lərin fəaliyyəti haqqında danışıb. Onun özlərinə görə, tələbə elmi dərnəklərdə təmsil olunan gənclər il ərzində apardıqları tədqiqatların nəticəsini təqdim edirlər. Müəyyən mərhələlərdən sonra ən yaxşı işlər universitet səviyyəsinə TEC-in konfransına çıxarılır.

"Vacib deyil ki, bütün tələbə elmi dərnəklərində iş aparsın. Hazırda tələbələrin 10 faizi tədqiqat işi ilə məşğul olur. əgər gələcəkdə onların 1-2 faizi professor müəllim heyətini əvəzləyəcəksə, onda biz öz vəzifəmizi yerinə yetirmiş olacağıq".

T.Süleymanov fəxrlə bildirdi ki, son 3 ildə məzun adını qazanmış xeyli sayda gənclər hazırda ölkənin əczaçılıq sektorunda işləyirlər. Hətta onlar arasında uğurlu biznes qurmağı bacaran, hazırda TEC-in fəaliyyətinə yardımın göstərənlər də az deyil. Professor bu cür fəaliyyətin daim alqışa layiq olduğunu vurğuladı.

Sonra konfrans işini davam etdirdi. Əczaçılıq fakültəsi TEC-nin üzvləri hazırladıqları mövzularda işi münsiflər heyətinin diqqətinə çatdırdılar.

Qeyd edək ki, konfransın nəticələrinə görə 2 nəfər tələbə I yer, 2 nəfər tələbə II yer, 2 nəfər tələbə isə III yerə layiq görüldülər, diplom və pul ilə mükafatlandırıldılar. 9 nəfər iştirakçı sertifikatla qiymətləndirildi.

# QƏLƏBƏLƏR DAVAM EDİR

**Mart ayında XII Respublika Universiadasında Azərbaycan Tibb Universitetinin tələbə idmançıları yeni qələbəyə imza atıblar. Belə ki, güləşin bütün növləri- cüdo, sərbəst güləş və Yunan- Roma güləşi üzrə komandalarımızın hər üçü birinci yeri tutub.**



Bu barədə redaksiyamıza bədən tərbiyəsi və idman kafedrasının müdiri, professor Kamal Kəbirlinski məlumat verərək bildirib ki, aprel ayının 1-dən 7-ə qədər Azərbaycan Neft Akademiyasının idman zalında basketbol idman növü üzrə (məşqçi Sevinc



İsayeva) kişilər arasında keçirilən XII Respublika Universiadasında Azərbaycan Tibb Universitetinin komandası 7 universitet komandasını məğlub edərək 1 yerə çıxıb. O, aprel ayının 6-dan 10-a qədər Milli Aviasiya Akademiyasının idman zalında voleybol idman növü üzrə (məşqçi Cəlaləddin Babayev) kişilər arasında keçirilən XII Respublika Universiadasında da komandamızın 8 universitet komandası üzərində qələbə çalaraq I yerə layiq görüldüyünü deyib.

Komandaların bütün üzvlərini və məşqçiləri təbrik edir, Universiadaya aid olan idman növləri üzrə yarışlarda universitetimizin idman şərəfini qoruyan tələbələrimizə yeni-yeni qələbələr arzulayırıq!

# Minnətdarlıq

**Mən 1993-cü ildə Füzuli rayonundan məcburi qaçqın kimi Səbail rayonunun Bayıl qəsəbəsində məskunlaşmışam.**

Qaçqınlıq həyatının acı anlarını yaşamaqdan dərin sarsıntılar keçirdiyimdən baş-beyin zədəsi almışdım. O zaman Azərbaycan Tibb Universitetində çalışan yaxın qohumum mərhum Hacı Həsən Quliyevin vasitəsilə Bakı şəhər 1 saylı xəstəxanasında çalışan dosent Fəridə Abbasova məni müayinə etdikdən, əsəb sarsıntısı keçirdiyimi müəyyən etdikdən sonra müalicəyə başladı. Həmin illər ölkəmizdə mövcud olan ağır durum özünü səhiyyə sahəsində də göstərmişdi. Palatalar bərbad vəziyyətdə idi. Adi elektrik, qızdırıcı xətləri yox dərəcəsində idi. Çarpayılar köhnəlib sıradan çıxmışdı. Hətta bir otaqda 5-6 həkim çalışırdı. Fəridə xanım gah təcrübə keçən tələbələrlə məşğul olur, gah da qəbuluna gələn xəstələrə tibbi yardım göstərirdi. Burada müalicə aldığım müddətdə müşahidə etdim ki, xəstələrin çoxu onun yanına gəlir. O, işinin çox olmasına baxmayaraq, müraciət edən hər bir xəstəyə ayrıca vaxt ayırırdı. Hətta o, biləndə ki, məcburi köçkünəm, evindən yemək də gətirirdi. Uzun müddət burada müalicə aldığım zaman bir gün böyrək çatışmazlığım oldu. Fəridə xanımın məsləhəti ilə tibb elmləri namizədi, əməkdar həkim Sultan həkimin yanına getdim. O, məni dinləyəndən sonra məsləhət verdi, dərman yazdı.

Həmin gündən çox vaxt keçib. O ağrılardan əsər-əlamət qalmayıb. Sultan həkimin xeyrxahlığını hələ də unutmamışam. Bu illər ərzində o bir sıra məsul vəzifələrdə çalışıb. Bu yaxınlarda eşitdim ki, Sultan həkim Bakı şəhər 1 saylı Klinik Xəstəxanasına baş həkim təyin edilib. Getdim ki, təbrik edəm. Aradan uzun müddət keçməsinə baxmayaraq məni tanıdı, səhhətimlə maraqlandı, yenə də özünəməxsus dəyərli məsləhətlərini verdi.

**Hörmətli redaksiya,** bu məktubu sizə ünvanlamaqda məqsədim budur ki, sağlamlığımın bərpasında əməyi olan bu həkimlərə sizin vasitənizlə təşəkkürümü çatdırım.

**Tofiq ƏSƏDOV,**
*əmək veteranı, məcburi köçkün*

# Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir

**Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.**

Xatırladırıq ki, vakant ştat vahidləri əsasən cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının tibb xidmətlərində həkim-ftiziatr, həkim-psixiatr, həkim-psixiatr-narkoloq, həkim-statistik, həkim-terapevt, həkim-cərrah, həkim-rentgenoloq ixtisasları üzrədir.

Tibb xidmətinə qulluğa qəbulla bağlı açıq müsabiqədə iştirak etmək istəyən və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən, həmçinin bəzi ixtisaslar üzrə rezidentura təhsili olmayan Azərbaycan Respublikasının vətəndaşları ərizə və müvafiq sənədlərini təqdim edə bilərlər.

Eyni zamanda həkim-psixiatr-narkoloq, həkim-infeksionist, şüa diaqnostikası üzrə həkim (rentgen və USM) ixtisaslı, yuxarıda göstərilən tələblərə cavab verən şəxslər Şəki penitensiar müəssisəsinin tibb xidmətinə qulluğa qəbula dəvət olunurlar.

Ərizə və sənədlər Tibb baş idarəsinin inzibati binasında (ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi 16 və18) bütün iş günləri qəbul edilir.

**Tibb xidmətinə qulluğa qəbulla bağlı aidiyyəti məsələlərlə, o cümlədən tələb olunan sənədlərin siyahısı ilə Nazirliyin internet səhifəsində və aşağıdakı telefonlar vasitəsilə əlavə məlumat almaq olar:**

**- Ədliyyə Nazirliyi üzrə www.justice.gov.az, tel.: 538-01-62.**
**- Nazirliyin tibb xidməti üzrə tel.: 493-06-50, 493-30-91.**

Arzu edənlərin müsabiqədə iştirakından məmnun olardıq.

**Ədliyyə Nazirliyi**

# Xına haqda nə bilirik?

**Ağlarot fəsiləsindən olan xına tropik ölkələrdə təbii və mədəni şəraitdə bitən çoxillik həmşəyaşıl bitkidir. Xına boyaq, bəzək və müalicə bitkisi kimi çox qədimdən məlumdur**

Hündürlüyü 1,5-2 bəzən isə 7 metrə çatan xına bitkisi 20-30 il yaşayır. Bitkinin birinci ildə verdiyi məhsul daha keyfiyyətli olur. İsti iqlim şəraitində xına bitkisi kol və ağac şəklində, mülayim iqlim şəraitində isə ot şəklində bitir. Çiçəklərinin rənginə görə xına ağ çiçəkli və qırmızı çiçəklidir. Çiçəkləri qızılgül kimi ətirlidir, noxud boyda yumru meyvə gətirir və toxum bu meyvələrdən alınır. Ucu iti, yumurtavari yarpaqlarının uzunluğu 3-5 santimetr, eni 1,5-2 santimetrə çatır.

Təbii şəraitdə xına Şimali Afrikanın, Ərəbistanın, Livanın, Pakistanın, İranın, Yəmənin, Somalinin, Şri-Lankanın, Hindistanın, Yaponiyanın, Floridanın, Kaliforniyanın tropik və subtropik iqlimə malik olan dağ ətəklərində bitir. Aparılan təcrübələr göstərir ki, Azərbaycanda (Abşeron, Şirvan, Naxçıvan zonalarında) və Cənub-Şərqi Türkmənistanda, həmçinin Qara dəniz sahillərində geniş becərilə bilir.



Alimlərimizdən əczaçılıq elmləri doktoru R.K. Əliyev xınanın bütün hissələrini, o cümlədən rəngləyici maddələrini təmiz kristal şəklində alaraq klinik sınaqdan keçirmiş və müəyyən etmişdir ki, xınadakı rəngləyici maddələr qüvvətli antiseptik xassəyə malikdir. Aparılan kimyəvi analizlər göstərir ki, xına tozunda müxtəlif yağlar, sellüloz, azot, kül, pantizon, kitrə, antraqlikozidlər, rəngləyici maddələr, tannin maddələri, xlorofil, S və K vitaminləri vardır.

Ekstraksiya yolu ilə xınadan alınan xlorofilli maddədən ekzemanın və irinli yaraların mualicəsində geniş istifadə olunur. Rəngləyici kristalın suda 1 % -li, spirtdə isə 5 %-li məhlulundan irinli yaraların, xüsusilə follikulit xəstəliyinin müalicəsində istifadə olunur. Yaranın ətrafına və üstünə həmin məhluldan sürtdükdə 3-4 gündən sonra yara tamamilə sağalır.

Şərq təbabətində xına tozundan sulu yaraları qurutmaq üçün səpmə dərmanı şəklində, sarılıq xəstəliyinin müalicəsində, mədə pozğunluğunda, qızılcada, göz xəstəliklərində, podaqraya qarşı dərman kimi istifadə olunur.

Hindistanda isə ciyər, dalaq, revmatizm, cüzam və çətin müalicə olunan dəri xəstəliklərini xına ilə müalicə edirlər. Xına boyaq, bəzək məqsədi ilə də istifadə edilən ən qədim bitkilərdəndir. Saçın, saqqalın boyanmasında, əl-ayaq dırnaqlarının bərkiməsində xına sınanmış bitkidir. Xınanın çiçəklərindən müxtəlif ətirlər alınır. Xınalı sabundan və şampundan istifadə etdikdə saç parlaq şabalıdı rəngə çalır.

# Arıqlamaq üçün süd məhsullarından necə istifadə etməli?

**Arıqlamaq üçün gün ərzində kifayət qədər zülal qəbul etmək lazımdır. Ancaq zülal orqanizm üçün faydalı məhsullardan alınmalıdır. Bu baxımdan ideal kiloda qalmaq üçün süd məhsulları inanılmaz effektə malikdir. Bəs arıqlamaq üçün süd məhsullarından necə istifadə etmək lazımdır?**



Süd məhsullarının tərkibində bol miqdarda kalsium var. Araşdırmalar göstərib ki, kalsium yağların əriməsi prosesini sürətləndirir.

Bir stəkan süd 250 mq. kalsium ehtiva edir. Gündəlik kalsium ehtiyacı 1000 mq-dır. Deməli 1 stəkan südlə kifayətlənmək olmaz. Kalsium ehtiyacını gün ərzində qatıq və yağsız pendir yeyərək ödəməlisiniz.

Pəhriz saxlayanlar pendir yeyə bilərlər. Pendirin yağsız növləri kökəltmir. Ancaq holland pendiri haqda bu fikri söyləmək olmaz. Yeməklərin üzərinə pendir rəndələmək əvəzinə bir az qatıq töksəniz, daha doğru seçim etmiş olarsınız.

Az yağlı qatıq orqanizm üçün çox faydalı olmaqla yanaşı, arıqlama prosesini də sürətləndirir. Unutmayın ki, pendiri həzm etmək daha çətindir. Ona görə də mədə və bağırsaqların sağlamlığı üçün pendir əvəzinə qatıq yeyilməlidir.

"International Journal of Obesity" adlı jurnalda yayımlanan araşdırmaya görə, pəhriz saxlayanlar arasında gündə 3 stəkan qatıq yeyənlər yeməyənlərə nisbətən 22 faiz daha tez kilo itirirlər.

Qatıq yeyənlərin əzələ nisbəti də daha yüksək olur. Onların bədənləri yağ itirsə də, əzələ balansını qoruyub saxlayır.

Qatıq yeyənlər çətin əriyən qarın yağlarından daha tez xilas olurlar.

Arıqlamaq istəyənlər üçün digər faydalı süd məhsullarından biri də kefirdir.

Kefirin tərkibindəki zülal, kalsium və təbii şəkər qanda şəkərin səviyyəsini tənzimləməyə və aclıq hissini azaltmağa kömək edir.

Süd özü də olduqca faydalıdır. Ancaq süd içərkən bəzi qaydalara əməl etmək lazımdır. Süd içməzdən öncə və sonra ət yemək olmaz.

Kökəlmək istəmirsinizsə, yağsız və qaymağı götürülmüş süd içməlisiniz.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin I kurs, $737^{a}$ qrup tələbəsi Aysan Movahedinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $209^{a}$ qrup tələbəsi Mahmudova Xalidə Rübail qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $101^{a}$ qrup tələbəsi Məmiyeva Şəms Yadigar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $309^{a}$ qrup tələbəsi Ərkan Dincin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $160^{b}$ qrup tələbəsi Əhmədova Günel Mehdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $140^{b}$ qrup tələbəsi Kazımlı Esmira Tofiq qızının adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, 204a qrup tələbəsi Cəfərzadə Firdovsi Şakir oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $46^{b}$ qrup tələbəsi Muradlı Arzu Təyyar qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $46^{a}$ qrup tələbəsi Ağazadə Soltanxanım Elxan qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $195^{a}$ qrup tələbəsi Peyman Cavadpur Kamil oğluna Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa görə verilən icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $2^{b}$ qrup tələbəsi Mayılov Fərmayıl Natiq oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 224